Gülşən Əliyeva-Kəngərli
*Filologiya elmləri doktoru, professor*

# ŞƏCƏRƏNİN RƏSSAM OĞLU

Bəhruz Kəngərli haqqında çox deyilib-danışılıb. Yüz dəfə, lap min dəfə.
Neynək, mənim bu yazım da olsun min birinci...



Şöhrət və miskinlik — qorxu kimi bir şeydir. Niyə? Axı şan-şöhrət qazanmaq niyə qorxuya bənzəsin?.. O səbəbdən ki, aşağı zümrə adətən qorxa-qorxa vəzifə qazanır, şan-şöhrətə çatır və eləcə qorxa-qorxa da onu itirirlər, ya da həmişə də çatdıqları mənsəbi itirməkdən qorxurlar. Ona görə bu sözü deyirik ki, — şöhrət də, miskinlik də qorxu ilə yanaşı yeriyir.
Yaxşı, onda belə çıxır ki, həyatda qazanılan şan-şöhrətin yeni bir üzü bədbəxtlikdir? Şan-şöhrətə çatmışamsa, onda mən bədbəxtəmmi? Bir şərtlə ki, gərəkdi onu yaddan çıxarmayaq — yalnız insanların xidmətində dayanan şöhrət sahiblərinin insanlar arasında yaşamağa haqqı vardır...

DAO-sindən...

Əgər, adi məişət qayğılarından baş açıb dünyaya nəzər yetirsən, görərsən ki, dünya - rənglərdən bütöv bir xalça, səslərdən ibarət bir simfoniyadır. Uca dağlardan əsən küləklərin pıçıtısı, bulaqların zümzüməsi, şəlalənin şırıltısı, quşların cəh-cəhi, dalğaların ahəngi, - bir sözlə, bizi əhatə edən təbiətin təkcə səs dünyası yox, həm də rəng aləmidir. Rəng aləmi rəssamın, səs dünyası bəstəçinin iş yeridir.

Belə deyirlər ki "Ölüm həyatın, musiqi isə incəsənətin son sözüdür". Bəs rənglər?! Məncə rənglər - əbədiləşmiş gözəllikdir. Gözəlliyin ölüm andı - rənglər... Rəssamsa ilahi anı - boyalarla, kətana köçürür.

Belə rəssamlardan biri - cəmisi 30 il (22.01.1892-7.02.1922) ömür sürmüş rəssam, boyakar və qrafika ustası Bəhruz Şirəlibəy oğlu Kəngərli olub. B.Kəngərli haqqında bəlkə də çox deyilib danışılıb. Uşaqlıqda ağır xəstəlikdən sonra eşitmə qabiliyyətini itirən Bəhruz lazımı təhsil ala bilməsə də, mehrini rənglər dünyasına salmışdı. O, 1910-1915-ci illərdə Tiflisdə peşəkar təhsil alan iki rəssamdan biridir.

Çox qısa bir ömür sürmüş Bəhruz Kəngərli dərin təfəkkürlü və necə deyərlər, "qızıl fırçalı rəssam" kimi öz ömrünün əbədiliyinə silinməz bir imza atıbdır. Zamanın tufanları, keşməkeşləri belə, Bəhruz Kəngərlinin parlayan ulduzunu söndürməkdə aciz idi.

Bəhruz Kəngərli bir qayda olaraq Naxçıvanda, şəhər ətrafında olan təbiət mənzərələrini, tarixi abidələri naturadan çəkirdi. Vaxtaşırı evlərində, şəhər-bazarda sərgilər düzəldir, onların tamaşasına gələn həmyerlilərinə, xüsusən də uşaqlara öz əsərləri və rəssamlıq sənəti barədə maraqlı söhbətlər danışırdı. O, "Naxçıvan yadigarı" adında kiçik albomlar düzəldərək lap ucuz qiymətə də satırdı. İlk sərgisini hələ tələbəykən, 1914-cü ilin yayında göstərmişdi. "Ağrı dağı", "Qürub mənzərəsi", "Avtoportretlər" və digər rəsmləri tamaşaçıların dərin rəğbətini qazanmış oldu. Rəssamlıq məktə-




bində oxuduğu illərdə Şişkin, Levitan, Kuinci kimi rus mənzərəçilərinin, rəssamların əsərləri ilə tanışlığı onun üslub və janr seçiminə təsirsiz qalmadı.

*Kəngərlilər (hansı ki, bu yazının müəllifi də o nəsildəndir) Azərbaycan xalqının etnogenezində iştirak etmiş, Səfəvilər dövründə "Ustaclı" tayfasının tərkibində ölkənin siyasi həyatında mühüm rol oynamışlar. Naxçıvan - Kəngərlilərin dədə-baba torpağı idi. XVIII əsrin 2-ci yarısından etibarən Kəngərli hakimləri yüksək rütbələr daşımış, Azərbaycanın ən güclü xanlarından olmuşlar. Tayfanın xan nəslindən olan nümayəndələri Naxçıvan tüməninin hakimi, bəy nəslindən olanları isə hakimin vəkili kimi fəaliyyət göstərmişlər.*

*Bəhruzun atası Şirəlibəy qədim Kəngərlilər nəslinin ən yaxşı gələnəklərini yaşadan bir ziyalı olub. Şirəlibəy gimnaziyada təhsil almış, XX əsrin əvvəlində Naxçıvanda formalaşan Avropa tipli maarifçi hərəkatın qabaqcıl xadimlərindən sayılırdı. O, həyat yoldaşı Şirin xanımla birgə böyük oğlu Bəhruza ev təhsili vermiş, onu rəssamlığa həvəsləndirmişdi.*

Bəhruz Kəngərli də öz soy-kökünü, nüfüz və ləyaqətini şərəflə qorumuş, çox gənc yaşından seçilib-sayılan sənətkar səviyyəsinə ucala bilmişdi. Onun peşəkar bir rəssam kimi yetişməsində "Molla Nəsrəddin" jurnalının rolu şübhəsizdir. Karikatura istiqamətində püxtələşən istedadlı rəssamın "Qoca kişi ", "Toy", "Elçilik" kimi məşhur əsərləri də o dövrdə yaranıb. 1914-cü ilin yayında Naxçıvanda 22 yaşlı rəssamın əsərləri sərgiləndi. "İqbal" qəzeti o vaxt belə yazırdı: - "... görünür, cavan rəssamımız gələcəkdə iftixarımız olacaqdır". Və həqiqətən oldu da...

Azərbaycan incəsənətində Kəngərliyə qədər şərtilik və dekorativlikdən tamamilə azad, formaca müxtəlif, əsl mənada realist ruhlu portretlər demək olar ki, yox dərəcəsindəydi. Rəssamın "Qaçqınlar" silsiləsində Naxçıvana pənah gətirən uşaqların portretləri daha üstünlük təşkil edir. Erməni işğalı və talanları nəticəsində öz dədə-baba torpaqlarından - İrəvan, Dərələyəz və Zəngəzurdan didərgin düşmüş insanların acı taleyi, ədalətsizlik - həmin portretlərin canına-qanına hopmuş kimidir. "Tərk edilmiş ev", "Yurdsuz ailə" əsərlərində rəssamın daxili iztirabları özünü biruzə verir.

Bəhruz Kəngərli yaradıcılığının çiçəkləndiyi bir zamanda - 1922-ci il fevralın 7-də vəfat etdi. Cəmi 30 il ömür sürmüş və yeddicə il yaradıcılıqla məşğul olmağa macal tapmış B.Kəngərli özündən sonra 2000-ə qədər əsər qoyub gedib. O, Azərbaycan boyakarlığında realizmin özülünü bərkidib, ona yeni məzmun, yeni təsvir vasitələri gətirmiş sənətkardır.

Bəhruz Kəngərli həm də bütün yaradıcılığı boyunca təbiətə sadiq qalan, ona həqiqi sənətkar gözü ilə baxan rəssam sayılır. Onun ilhamla çəkilmiş əsərlərində zərif lirizm, nikbin, amma xəfif bir kədər duyulmaqdadır. Bu kədərin özü də Vətənə, doğma təbiətə bəslədiyi sönməz məhəbbətdən baş alıb gəlir...

Azərbaycan Xalq Cümhuriyyəti dövründə Bəhruz Kəngərli müntəzəm olaraq boyakarlıq və qrafik əsərlər yaradıb. 1921-ci ildə "Qızıl əsgər" əsərini çəksə də bu işi onun ömrünə zəmanət vermədi, dünyasını vaxtsız dəyişərək xatirələrə köçdü. Tədqiqatçılarm fikrincə, Bəhruz Kəngərlinin iki minə yaxın portret, mənzərə və rəsm əsərləri əldən-ələ düşərək it-bat olubdur. Hazırda Azərbaycan Dövlət İncəsənət Muzeyində Bəhruz Kəngərlinin 500-ə yaxın, Naxçıvan muzeyində isə 50-dən çox əsəri qorunub saxlanır. Moskva Dövlət Tarix Muzeyində, eyni zamanda şəxsi kolleksiyalarda belə onun əsərlərinə rast gəlinir. Bəhruz Kəngərlinin yaradıcılığı, eləcə də onun mənsub



olduğu Kəngərli şəcərəsi barədə kitablar çap olunub. Təbii ki, indən belə də bu orijinal fırça sahibinin rənglər dünyası zaman-zaman araşdırılacaq və tədqiq ediləcəkdir. Bəhruz Kəngərlinin yaradıcılığı haqqında ən dəyərli fikirləri ulu öndərimiz Heydər Əliyev demişdir: "Bəhruz Kəngərlinin əsərləri həddindən artıq qiymətlidir. Birincisi, onun rəssamlıq ustalığına görə, ikincisi, onun yaratdığı obrazlara görə - mən insan obrazlarını deyirəm. Xüsusən, o ağır dövrün, 1918, 1919, 1920-ci illərin çətin dövründə xalqımızın ağır vəziyyətdə olmasını öz əsərlərində əks etdiribdir".

Tanrı Bəhruz Kəngərlini dünyanın səslərini eşitməkdən məhrum etmişdisə də, rənglərin simfoniyasını gözüynən görərdi.

Azərbaycanda açılan ilk böyük sərgidə Bəhruz Kəngərlinin 500-ə qədər əsəri göstərildi. "Şəlalə", "Dağ mənzərəsi", "İlandağ ay işığında" "Günəş batarkən", "Ağrıdağ", "Köhnə qala", "Əshabi-kəf" və başqa bu kimi əsərlər...

Bəhruz Kəngərli yaradıcılığının mühüm bir qolunu da teatr rəssamlığı təşkil edir. O, hələ 1910-cu ildən etibarən M.F.Axundzadənin "Hacı Qara", C.Məmmədquluzadənin "Ölülər", Ə.Haqverdiyevin "Pəri cadu" əsərlərinə səhnə tərtibatı vermişdi. B.Kəngərlinin adı Azərbaycan realist boyakarlıq sənətinin tarixinə əbədi yazılıb. Naxçıvan Ali Məclisinin qərarı ilə Naxçıvanda Bəhruz Kəngərli muzeyi yaradıldı, Naxçıvan Dövlət Tarix Muzeyi isə onun adını daşımaqdadır.

Yazıçı dramaturq Adil Babayev onun taleyinə və yaradıcılığına "Yarımçıq şəkil " adlı pyes həsr eləyib.

Böyük italyan rəssamı Rafael belə deyib: "Anamın bircə dəfə öpməyi məni rəssam elədi". Fəqət, Bəhruz Kəngərliyə belə bir ilahi məhrəmlik qismət olmadı. Anasını tez itirmişdi. İnamla demək olar ki, Bəhruz Kəngərlinin yaradıcılığı uşaq səmimiyyətindən yoğrulub. O, bu rəsmləri ilə təbiətdən əbədiyyətə yol gedir. Özü kimi əbədi gənc. Onun hər yaxısının, hər rənginin fəlsəfəsi ehtirasa köklənib. Bu şəkillər ahıllıqdan xəbərsizdir, odur ki, müəllifi kimi onlar da heç vaxt qocalmayacaq.



... Mənə bəzən elə gəlir ki, Bəhruz Kəngərinin rəngləri günəşdən qopmuş zərrələrdi. İstər mənzərələrində, istər portretlərində boliuca günəş, istilik var. Onun rəsmlərinə baxanda günəşin aurasını duyursan.

Mədəniyyət və Turizm Nazirliyinin 12-22 iyun 2012-ci il tarixdə Azərbaycan Milli İncəsənət Muzeyində Bəhruz Kəngərlinin 120 illiyinə həsr olunmuş sərgisində Bəhruz Kəngərlinin 80-ə yaxın əsəri təqdim olundu. Naxçıvan şəhərindəsə Bəhruz Kəngərlinin adını daşıyan Rəsm Qalereyasında görkəmli sənətkarın əsərlərindən ibarət daha geniş sərgi təqdim olundu. Yubiley şərəfinə poçt markası buraxıldı, elmi konfranslar keçirildi. Rəssamın ilk albom-kataloqu nəşr olundu, "Sənətin Bəhruz zirvəsi " adlı sənədli film çəkildi.



*Bəhruz Kəngərli rəsmlərində qəhrəman Kəngərlilərin yenilməz ruhu əbədiləşir. Bu ruh bir insan kimi mənə doğmadır, o mənim damarlarımda qanıma qarışıb axmaqdadır. "Əslini danan haramzadadır" deyiblər. Özünü öymək olmasın, nə gədər ki, damarlarımda Kəngərli qanı dövran eləyir, zehnimin enerjisi, qəlbimin bütün sevgisi ilə Kəngərlilərin uğrunda şəhid olduğu, son anda üz qoyduğu Vətənə, Millətə və Dövlətə xidmət edəsiyəm...*

Qoy Bəhruz Kəngərli barədə min birinci sözüm elə burda bitsin...

◆